# Dünya Təhsil Forumu

## Təhsil naziri forumda iştirak edib




Londonda "Ölkələrimizin və icmalarımızın gələcəyini birlikdə daha güclü, daha təhsilli və daha təkmil şəkildə quraq" şüarı altında təşkil edilən Dünya Təhsil Forumu keçirilib. 107 ölkədən 112 nazirin iştirakı ilə keçirilən Forum çərçivəsində 2022-ci ildə dünya təhsilinin qarşısında duran əsas çətinliklər və çağırışlar, onların həlli yolları müzakirə edilib.

Forumda həmçinin təhsilin inkişafı vasitəsilə sülhün, tərəfdaşlığın və rifahın əldə edilməsi, uğurlu iqtisadiyyatların qurulması yollarına baxılıb. Sessiyalarda təhsilə hamı üçün bərabər çıxış, iqtisadi artım, süni intellektin istifadəsi, texnologiya və data əsaslı qərarvermənin cəmiyyətlər üçün əhəmiyyəti müzakirə edilib. Dövlət-özəl tərəfdaşlığı, fərdi və kollektiv cavab mexanizmləri, qlobal problemlərə yerli həll yollarının tapılması da ümumi təhsil müzakirələrinin gündəliyində əks olunub.

Forum çərçivəsində təşkil olunan 9 plenar iclas, panel sessiyalarda "Dünyada baş verən son çağırışlara cavab necə olmalıdır?", "Təhsilə ayrılacaq resursları və onların istifadəsi səmərəliliyini necə artırmaq mümkündür?", "Birgə və daha yaxşı təhsili necə qura bilərik?", "Təhsilin inkişafı üçün böyük qurum və agentlikləri necə yarada bilərik?", "Rəqəmsal resurslar, təhlükəsiz infrastruktur və praktik dəstəyə necə nail olmaq olar?", "Məktəbəqədər təhsildən başlayaraq ali təhsilə qədər öyrənmə yolunu necə daha uyğun dizayn və daha rahat icra edə bilərik?", "Ümid etdiyimiz vətəndaşı və cəmiyyəti necə daha uğurla yetişdirə bilərik?" və "Kollaborativ innovasiyaları necə daha sürətləndirə bilərik?" mövzuları müzakirə olunub.

Qeyd edək ki, 22-25 may 2022-ci il tarixlərində Böyük Britaniyanın London şəhərində ənənəvi keçirilən Dünya Təhsil Forumunda ölkəmizi təhsil naziri Emin Əmrullayevin başçılıq etdiyi nümayəndə heyəti təmsil edib.

Təhsil naziri Forumun "Ümid etdiyimiz cəmiyyəti necə uğurla qura bilərik" mövzusunda təşkil olunmuş 7-ci plenar sessiyada çıxış edib və ölkəmizdə təhsil sahəsində həyata keçirilən fəaliyyət haqqında Forum iştirakçılarını məlumatlandırıb.

Səfər çərçivəsində təhsil naziri Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolson ilə də işgüzar görüş keçirib. Görüş zamanı iki ölkə arasında təhsil sahəsində əməkdaşlığın cari vəziyyəti və gələcək perspektivləri müzakirə edilib.




